# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar”da və 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında bildirişin forması və məzmunu”nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 730-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1062) ilə təsdiq edilmiş “Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar”a “təqdim edilmiş” sözlərindən sonra “və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 24.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla əldə edilmiş” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1075) ilə təsdiq edilmiş “Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında

bildirişin forması və məzmunu”nda birinci halda “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin” sözləri “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 21.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla və həmin Məcəllənin” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 dekabr 2023-cü il

№ 453